# "ŞƏRQ QADINI" HAQQINDA YANLIŞLIQLAR

**Qərənfil Quliyeva**

*BDU, Milli mətbuat tarixi kafedrasının dosenti, filologiya üzrə elmlər doktoru*

**Xülasə**

*Sovet Hakimiyyəti 1920-ci ilin aprel ayında XI Qızıl Ordunun gücünə ölkəmizi işğal etdi və Azərbaycan Xalq Cümhuriyyəti süquta məruz qaldı. Sovetlər işğaldan sonra Şura hökumətinin ideyalarını təbliğ etmək üçün ilk olaraq mətbuatdan daha çox istifadə etdilər. Bu təbliğat işinə əsasən gəncləri və qadınları cəlb edildi. Beləliklə ölkəmizdə sovet ideologiyasının, total rejimin təbliğatçısı olan qadın mətbuatı fəaliyyətə başladı. Bunların arasında bir günlük qəzetlər, vərəqələr və üç-dörd sayı çap olunan jurnallarda oldu. Amma uzun illər fəaliyyətini qoruyub saxlayan mətbu orqanları da var idi. Məsələn, "Şərq qadını" jurnalı buna misal ola bilər. İlk sayı 1923-cü ilin noyabrında çap olunan jurnal, 1938-ci ildən sonra adını dəyişdirərək "Azərbaycan qadını" adı ilə fəaliyyətini davam etdirib. Jurnal istər "Şərq qadını", istər "Azərbaycan qadını" adı ilə çıxarkən hakim partiyanın, total rejimin siyasətini təbliğ edən partiya-sovet mətbuatı olub. Ona görə də hər iki jurnalın fəaliyyəti yenidən tam obyektiv şəkildə tədqiqata cəlb edilərək, baxış verən yalnış fikirlər aradan qaldırılmalı, yeni baxış özünü əks etdirməlidir. Çünki, həmin tədqiqatların əksəriyyətində jurnalların nəşr tarixi, mazmunu və s. məsələlər haqqında səhv fikirlər, mülahizələr var.*

***Açar sözlər:*** *"Şərq qadını" jurnalı, sovet dövrü tədqiqatları, ideoloji yanaşma, məzmun, yanlış təbliğat*

Sovet Hakimiyyəti bərqərar olduğu ilk gündən, süqutunun son gününə kimi hakim partiyanın və total rejimin yanlış siyasətini təbliğ etmək üçün daha çox mətbuatdan istifadə etdi. 1920-ci ilin aprel işğalından sonra Azərbaycanda sovetlərin ideyalarını təbliğ edən mətbuat orqanları fəaliyyətə başladı və bu təbliğata əsasən gənclər, qadınlar cəlb edildi. Belə mətbuat orqanlarından biri də 1923-cü ilin noyabrında ilk sayı çap edilən "Şərq qadını" jurnalıdır. Təəssüf ki, sovet dövründə yazılan əksər tədqiqatlarda "Şərq qadını" jurnalı "Azərbaycan sovet qadın mətbuatının ilk nümunəsi kimi tədqim edilir" (3) (məsələn Sabir Gəncəlinin (Məmmədov) və b. əsərlərində). Bu fikir səhvdir. "Şərq qadını" jurnalindan əvvəl Bakıda qadınlar üçün bir günlük vərəqə, bir günlük iki qəzet və bir jurnal çap edilib.

Bu haqda hələ 1967-ci ildə BDU-nun professoru Ceyran Əbdürrəhimova "Azadlığın carçısı" adlı kitabında geniş məlumat verib. Ceyran xanım yazırdı: "Şərq qadını" jurnalından əvvəl Bakıda "Zəhmətkeş qadınların yolu" və "Qafqaziya zəhmətkeş qadınlarının yolu" adlı bir günlük qəzet çap edilib. 1922-23-cü ildə isə Zaqafqaziya Ölkə Komitəsi qadın şöbəsinin orqanı olan "Zaqafqaziya zəhmətkeş qadını" adlı jurnal işıq üzü görür. Hər iki qəzet və jurnal Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin qadınlar şöbəsi tərəfindən nəşr edilib" (2. s, 4).

Bu qəzetlərin və jurnalın fəaliyyəti haqqında "İşıq" jurnalında geniş





məlumat verdiyim üçün burada təkrar etmirəm. "Zəhmətkeş qadınların yolu" qəzeti 1921-ci ilin fevralın 8-də, "Qafqaziya zəhmətkeş qadınlarının yolu" adlı qəzet isə 1921-ci ilin oktyabrın 1-də işıq üzü görüb. ""Azərbaycanın gənc qadınlarına" adlanan vərəqə isə Şərq Gənclər Şurası tərəfindən təxminən 1922-ci ildə buraxılmışdı" (2. s, 9-10). "Şərq qadını" jurnalının ilk sayı isə 1923-cü ilin noyabrında çap edilib.

Əslində "Şərq qadını" jurnalının fəaliyyəti, rəhbərliyi haqqında sovet dövründə yazılan bir çox tədqiqat əsərlərində yanlışlıqlar var. Məsələn, tədqiqatçı alim Sabir Gəncəlinin (Məmmədov) "Azərbaycan qadınlarının həyat və mübarizə salnaməsi", "Azadlıq yollarında" kitablarında, Hökumə Sultanovanın "Ayna Sultanova" əsərində və bir çox tədqiqatlarda Ayna Sultanovanı birmənalı olaraq jurnalın ilk redaktoru kimi təqdim etməklə yanaş həm də jurnalın yalnız məhz onun fəaliyyəti ilə nəşrə başlaması qeyd edilir.

Təəssüf ki, bu yanlışlıqlar bu gün də bəzi məqalə və əsərlərdə təkrarlanır. Məsələn, "Şərq" qəzetinin 8 Mart 2019-cu il tarixli sayında çap edilən "Sovetləşmənin ilk illərində Azərbaycanın qadın mətbuatı" adlı məqalə (6) də və yenə həmin qəzetin 28 Aprel 2020-ci il tarixli sayında işıq üzü görən "Kiçik bir otaq, rəngsiz stol ətrafında çalışan dörd qadın" sərlövhəli yazıda (7) qeyd edilir ki, "Jurnalın ilk baş redaktoru Ayna Sultanovadır".

Arxiv sənədləri və jurnalın ilk sayları isə bunun əksini deyir. 1923-cü ildə AK (b) P MK-nin qadın şöbəsinin xüsusi mətbuat orqanı olması elə MK-nin yığıncaqlarından birində tələb edilir. Belə ki, 1923-cü ilin 2- iyulunda Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin katibi Əliheydər Qarayevin və "Kommunist" (azərbaycanca) qəzetinin redaktoru Həbib Cəbiyevin təşəbbüsü ilə AK (b) P MK qadınlar şöbəsində yığıncaq kecirilir. Burada Ayna Sultanovanın da iştirakı ilə müstəqil qadın jurnalı yaratmaq təşəbbüsü irəli sürülür və bəyənilərək qərar qəbul edilir.

Arxiv materiallarından və Ceyran xanımın kitabından belə aydın olur ki, "Şərq qadını" jurnalı təşkil edilərkən onun redaksiya heyəti 7 nəfərdən ibarət olub. "Jurnalın redaksiya heyətinə bunlar daxildir: iki bitərəf qadın; Şəfiqə Əfəndizadə və Qiyasbəyova. AK (b) P üzvü üç türk qadını: Sultanova, Mirzəyeva və Əzizbəyova. Jurnalın məsul redaktoru AK (b) P MK katibi yoldaş Qarayev, texniki katib yoldaş Axundovdur" (2. s, 57).

Jurnalın özünün də ilk saylarında bəzən məsul redaktor Ə. Qarayevin adı yazılıb, bəzən də "Heyəti təhriyyə" yazılıb. Ayna Sultanova isə jurnala 1924-cü ildən redaktorluq etməyə başlayıb və 1931-ci ilin aprelinə kimi. 1931-ci ilin may ayından 1937-ci ilin may ayına kimi jurnalın redaktoru dövrünün tanınmış publisisti, jurnalisti Gülarə Köylü qızı (Qədirbəyova) olub.

Hətta bəzi mənbələrdə "Şərq qadını" jurnalının "ilk redaktoru Məmməd Səid Ordubadi olduğu qeyd edilir" (2. s, 57). Lakin bunu təsdiq edən nə arxiv sənədi, nə də jurnalda bir fakt tapa bilmədik. Və yaxud "Azərbaycan qadını-50" adlı nəşrdə "jurnala "bir müddət Şəfiqə Əfəndizadənin redaktorluq etdiyi qeyd edilib" (1. s, 9). Bu da bir yanlış faktdır. Azərbaycan Xalq Cümhuriyyəti dövrü-

nün ən fəal publisistlərindən bir olan Şəfiqə xanım "Şəqr qadını" jurnalında çox az-az çap olunan müəlliflərdən olub. İşğalcı sovet hökumətini heç vaxt qəbul etməyən Şəfiqə xanım onun ideyalarının təbliğatçısı olmayıb. Ona görə də, bu dövrdə yalnız pedaqoji fəaliyyətini davam etdirib. Onu da qeyd edim ki, jurnalın ilk redaktorları Ə. Qarayev, A. Sultanova və G. Qədirbəyova "jurnalda redaktorluq işini ictimai vəzifə kimi aparmışlar. Jurnalda yalnız məsul katib və texniki katib kimi ştatlı vəzifə olmuşdur" (2. s, 63).

Beləliklə, Bakıda aylıq, ədəbi, ictimai, siyasi jurnal olan "Şərq qadını"nın ilk sayı 1923-cü ilin noyabr ayında, 40 səhifədən ibarət, 1. 000 nüsxə tirajla çap edilib. Jurnal əksər saylarında "iki həftədən bir" çıxması elanını versə də, əslində ayda bir dəfə işıq üzü görüb. Bəzən ayda iki dəfə, (məsələn, 1939-cu ilin oktyabrına kimi ayda iki dəfə) bəzən isə bir ayda dörd sayı (məsələn, 1932-ci ilin yanvarında dörd sayı, həmin ilin martında iki sayı) bir yerdə çap edilib. Səhifələrin həcmi də azaldılıb. Bəzən 15, 16, 20, 25 səhifə olub. Bu yəqin ki, həmin dövrün ziddiyyətli hadisələri ilə və bir də maliyyə məsələləri ilə əlaqədar ola bilər. Jurnal "Qızıl Şərq", "III İnternasional" və b. mətbəələrdə çap edilib.

"Bu hökumət sənindir"-deyə qadınları ilk sayından Sovet Hökumətinin Azərbaycanda bərqərar edilməsinə cəlb edən "Şərq qadını" jurnalı "bütün dövrlərdə firqə, şura və ictimai əfkari-ümumiyyəni qadın azadlığının konkret vəzifələri ətrafında səfərbər etdi". Odur ki, "Şərq qadını" sosializm ideyalarını necə böyük sevgilə təbliğ edirdisə, adı dəyişdirilib "Azərbaycan qadını" (1938) olanda da bu sevgisinə sadiq qaldı. Hər ikisi hakim partiyaya məxsus olduğu üçün, işğalçı hakimiyyətin ideologiyasının təbliğatçısı idi. Bunu əksər tədqiqatçılar da təsdiq edir. "Jurnal partiya və hökumətin qərarlarını yerinə yetirmək, onların mənafeyinə uyğun olaraq qadınların siyasi və mədəni tərbiyəsi işini yerinə yetirmək, "sosializm qurucuları" yetişdirmək məqsədi daşıyan partiya orqanı idi". (5. s, 68).

Doğrudur, jurnal istər "Şərq qadını", istər "Azərbaycan qadını" adı altında çap edilərkən Azərbaycan qadınının maariflənməsində, yeni həyata atılmasında mühüm işlər görüb. Amma bu proses yalnız ruslaşma siyasəti altında aparılıb. Ona görə də, hər iki jurnal sovet-partiya mətbuatı idi və sona kimi də bu partiyanın ideyalarının təbliğatçısı olub. Bunu jurnalın ilk sayından, son sayına kimi məzmunu da sübut edir.

"Azərbaycan qadını leninizm uğrunda", "Azərbaycan qadını və Şura hökuməti, "Aprel günəşi Azərbaycan qadınına xöşbəxtlik bəxş etdi", "Azərbaycan qadınının maariflənməsində -Stalinin qayğısı", "Azərbaycan qadını sosializm uğrunda", "Biz kommunizmə gedirik", "Azərbaycan qadını xoşbəxtliyi üçün –sovetlərə borcludur" və s., və i.

"Şərq qadını" jurnalının 1923-cü ildən, 1938-ci ilin dördüncü sayına kimi (bundan sonra bir müddət fəaliyyətini dayandırıb) olan saylarını gözdən keçirərkən daha çox kənd təsərüfatı mətbu orqanı təəssüratını yaradır. Bunu orda çap edilən məqalələr, sərlövhələr, rublikalar, bütövlükdə məzmun sübut edir və belə bir yanlış fikir yaranır ki, Azərbaycan qadınının yeri yalnız fermadır, tarladır, kolxozdur. Məsələn, "Maldarlıq işinin inkişafında Şərq qadınlarının





rolu", "Pambıq tarlasında qadın əməyinin rolu", "Kolxozçu qadınlar raport verir", "Azərbaycan qadını- fermada", "Azərbaycan qadını- kolxoz tarlasında" və s. və i.

Bu məqalələri oxuyarkən belə bir sual yaranır ki, görəsən, 1920-30-cu illərdə Azərbaycanda bir həkim, müəllim, jurnalist, publisist, hüquqşünas və s. peşələri icra edən qadınlar yox idimi? Niyə onlar haqqında məqalələr verilmirdi. Az qala jurnalın hər sayında N. Krupuskaya, K. Setkin və başqalarının tərifi göylərə qaldırılıb. Deməli, Sovet Hökuməti, xüsusən də Mərkəz Azərbaycan qadınını yalnız fermaya, tarlaya, kolxoza layiq görürdü. Odur ki, hər iki jurnal yenidən tam obyektiv şəkildə tədqiqata cəlb edilməlidir. Çünki bu jurnallar haqqında sovet dövründə yazılan tədqiqatların əksəriyyəti birmənalı olaraq total rejimin ideologiyasına, dövrün tələb və təklifinə uyğun yazılıb.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. "Azərbaycan qadını -50". Bakı: İşıq, 1974, 63 s.
2. Əbdürrəhimova Ceyran. Azadlığın çarcısı. Bakı: Gənclik. 1967, 66 s.
3. Gəncəli Sabir (Məmmədov). Azadlıq yollarında. Bakı: Azərnəşr, 1980, 188 s.
4. Hökumə Sultanova. Ayna Sultanova. Bakı: ADN, 1965, 79 s.
5. Rzayev P. "Şərq qadını" jurnalında Xəlil Fikrət imzası". Pedaqoji Universetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. 2020, N-2, 68 s.
6. "Şərq" qəz. , 2019, 8 mart
7. "Şərq" qəz. , 2020 28 aprel


**Garanfil Guliyeva**

## Misconceptions about the «Sharg gadini» magazine

### Sammary

*In April 1920, the Soviet power invaded our country under the power of the XI Red Army and the Azerbaijan Democratic Republic fell. The Soviets first used the press more to promote the ideas of the council government after the invasion. Young people and women were mainly involved in this propaganda work. Thus, the women's Press began to function in our country, which was a propagandist of Soviet ideology, the total regime. Among them were one-day newspapers, leaflets and magazines in which three or four issues were prin-ted. But there were also press agencies that maintained their activity for many years. For example, the magazine "Sharg gadini" can serve as an example. The magazine, the first issue of which was published in November 1923, changed its name after 1938 and continued its activities under the name "Azerbaijan gadini". When the magazine was published as "Sharg gadini" or "Azerbaijan gadini", it was the party-Soviet nress that promoted the policy of the ruling party, the total regime. Therefore, the activities of both journals should be re-objectively involved in the study, eliminating the false ideas that have occurred and reflecting a new vision. Because, in most of these studies, the date of publication of the journals, their content, etc. there are misconceptions, judgments about issues.*

*Keywords: Magazine "Sharg gadini", Soviet period studies, ideological approach, content, false propaganda*

**Гаранфиль Гулиева**

## Заблуждения относительно журнала « Шярг кадыны »

**Резюме**

*Советская власть вторглась в нашу страну в апреле 1920 года с помощью XI Красной Армии, и Азербайджанская Демократическая Республика пала. После вторжения Советская власть стала больше использовать прессу для продвижения идей советского правитель-ства. К этой пропагандистской политике в основном привлекались молодежь и женщины. Таким образом, в нашей стране начала дей-ствовать женская пресса, которая пропагандировала советскую идеологию и тотальный режим. Среди них были ежедневные газе-ты, листовки и несколько номеров печатных журналов. Но были и печатные органы, которые издавались на протяжении многих лет. Например, журнал «Шярг кадыны» (Восточная женщина). Журнал, первый номер которого вышел в ноябре 1923 года, после 1938 го-да сменил название и продолжил свою деятельность под названи-ем «Азербайджан кадыны» (Азербайджанская женщина). Это была партийно-советская пресса, пропагандировавшая политику пра-вящей партии и тотального режима. Поэтому деятельность этого журнала под обоими названиями должна быть полностью объек-тивно вовлечена в исследование, должны быть устранены заблуж-дения и отражено новое видение. Потому что в большинстве этих исследований даны неправильные представления о дате издания, содержание, о проблемах и т. д.*

***Ключевые слова:*** *журнал «Шярг кадыны» (Восточная женщина), исследования советского периода, идеологический подход, со-держание, ложная пропаганда.*